BAKI DÖVLƏT UNİVERSİTETİ
İLAHİYYAT FAKÜLTƏSİNİN

# ELMİ MƏCMUƏSİ

№ 01 (01) MART 2004

## İLAHİYYAT FAKÜLTƏSİ

AMEA-nın müxbir üzvü, prof.V.M.Məmmədəliyev*
F.e.n., dos. M.Qarayev*

Sovet hakimiyyəti dövründə başqa SSRİ respublikalarında olduğu kimi, Azərbaycanda da ateizm siyasəti nəticəsində dini dəyərlərimiz heçə endirilmiş, onlar cəmiyyətin inkişafına mane olan, insanlarda kommunizm şüurunun formalaşmasına əngəl törədən zərərli adət-ən'ənələr kimi yasaq edilmişdi. İş o yerə çatmışdı ki, xalqımızın ən əziz günü, hələ İslamiyyətdən çox-çox əvvəl ölkəmizdə böyük bir təntənə ilə qeyd olunan Novruz bayramı belə «dini bir bayram kimi» qadağan edilmişdir, onun rəsmi şəkildə qeyd edilməsi yasaqlanmışdı. Lakin dininə, mə'nəviyyatına, qədim adət-ən'ənələrinə qəlbən bağlı olan Azərbaycan xalqı bütün bu qadağalara baxmayaraq sovet rejimi, allahsızlıq siyasəti illərində belə öz dini dəyərlərini uca tutmuş, insanda fitri şəkildə mövcud olan Allah eşqini, Allah sevgisini ən müqəddəs əmanət kimi həmişə qoruyub saxlamış, onu nəsildən nəslə ötürmüşdür.

Bolşevik rejimi dövründə respublikamızda dini təhsil qadağan edildiyindən gənclərimiz islam dininin əsaslarını bə'zi bölgələrdə, evlərdə təşkil olunmuş gizli mədrəsələrdə öyrənir, buna imkan olmadıqda isə kiril əlifbası ilə yazılmış Qur'an surələrini, duaları əzbərləyib onları məclislərdə, tə'ziyə yerlərində oxuyaraq xalqın dini mərasimlərə olan ehtiyacını bir təhər ödəyir, beləliklə də, müqəddəs dinimizin ehkamlarının, qayda-qanunlarının unudulmasına imkan vermirdilər.

Azərbaycanda heç bir rəsmi dini məktəb, mədrəsə olmadığından xüsusi orta və ali dini təhsil almaq istəyən gənclərimiz bu məqsədlə Özbəkistana gedib ya Buxaradakı Mir Ərəb Mədrəsəsində və ya

---

* BDU İlahiyyat Fakültəsi dekanı

* BDU İlahiyyat Fakültəsi. Dillər kafedrasının müdiri.

Daşkənd Ali İslam İnstitutunda oxumağa məcbur olurdular. Bu isə təbii ki, hər adama nəsib olmur, yalnız çox məhdud sayda gənclərimiz bundan bəhrələnə bilirdilər.

Sovet hakimiyyətinin ilk anlarında və 1937-ci il repressiyası dövründə müxtəlif Şərq ölkələrində təhsil almış yüksək ixtisaslı din xadimlərimiz məhv edilmiş, ruhanilərimiz bir sinif kimi ləğv olunmuşdu. Belə bir şəraitdə savadlı din xadimlərimiz, demək olar ki qalmadığından, Azərbaycanda mövhumat din kimi qələmə verilir, bununla da müəyyən dairələr tərəfindən şüurlu şəkildə islamı hörmətdən salmağa cəhd göstərilirdi. Zaman isə, necə deyərlər öz işini görürdü. Əsrimizin 30-cu illərindən e'tibarən ateizm siyasəti açıq-aşkar şəkildə artıq heç nəyə yaramır, xalq kütləvi şəkildə öz dini dəyərlərinə, dini mərasimləri leqal şəkildə icra etmək istəyini biruzə verir, gənclərimiz arasında dinə meyl gündən-günə güclənirdi. Bütün bunların nəticəsində son yetmiş ildə elm və texnikanın müxtəlif sahələrində bir sıra nailiyyətlər əldə etmiş Azərbaycanda yüksək ixtisaslı dini kadrlara böyük ehtiyac hiss olunurdu. Bakı Dövlət Universiteti nəzdində İlahiyyat fakültəsinin yaranması məhz belə bir ehtiyacdan, belə bir zərurətdən doğmuşdur.

***Fakültənin yaranması tarixi.*** BDU-nun İlahiyyat fakültəsi 1992/93-cü tədris ilində Azərbaycan Respublikası Təhsil Nazirliyi, Bakı Dövlət Universiteti və Türkiyə Diyanət Vəqfi arasında bağlanmış müqavilə əsasında tə'sis olunmuşdur. Hazırda fakültədə təhsil müddəti beş ildir. Fakültənin mə'zunlarına iki ixtisas – ilahiyyatçı-islamşünas və ərəb dili müəllimi ixtisası verilir. Bu da mə'zunlarımızın işlə təmin oluna bilməsi üçün geniş imkanlar açır. Belə ki, artıq məzunlarımızın bir çoxu respublikamızın dövlət, elm, təhsil və dini müəssisələrində çalışırlar. Onların bir qismi isə elmi-tədqiqat işləri ilə məşğul olaraq, namizədlik dissertasiyası yazıb müdafiə etmişlər. İndiyə qədər məzunlarımızdan üç nəfər ilahiyyat ixtisası üzrə namizədlik dissertasiyası müdafiə edərək ilahiyyat elmləri namizədi alimlik dərəcəsini almışdır.

İlahiyyat fakültəsi ötən müddət ərzində yüksək ixtisaslı islamşünas kadrlar yetişdirmək sahəsində qoyduğu məqsədlərə nail olmaq üçün qətiyyətlə irəliləyir. Son zamanlar respublika ictimaiyyəti arasında fakültəmizin nüfuzu xeyli artmışdır. Tələbələrimizin bir

çoxunun tələbə qəbulu üzrə Dövlət Komissiyasının ərizə formalarında islamşünaslıq ixtisasını birinci ixtisas kimi qeyd etmələri və fakültəmizə qəbul olunan tələbələrin qəbul ballarının yüksəlməsi buna sübut ola bilər.

Birinci tədris ilində / 1992-1993 / fakültəyə ilk qəbul olunmuş tələbələrin sayı 61 nəfər olmuşdur. Sonrakı illər fakültəyə tələbə qəbulu planı bir qədər aşağı salınmışdır. Bu dərs ilində fakültəyə 43 tələbə qəbul olunmuşdur. İndiyə qədər fakültəyə cəmi 548 nəfər tələbə qəbul olunmuşdur.

İndiyədək fakültənin yeddi buraxılışı olmuşdur. 1996-1997-ci dərs ilində – birinci buraxılışda fakültədə 37 tələbə, 1997-1998-ci dərs ilində ikinci buraxılışda 54 tələbə, 1998-1999-cu dərs ilində üçüncü buraxılışda 42 tələbə, 1999-2000-ci dərs ilində 37 tələbə, 2000-2001-ci dərs ilində 47 tələbə,2001-2002-ci dərs ilində 33 tələbə və 2002-2003-cü dərs ilində 31 tələbə təhsilini başa vurmuşdur. Bu buraxılışlar ərzində fakültəni bitirmiş tələbələrin ümumi sayı 281 nəfərdir.

Hazırda fakültədə 207 tələbə təhsil alır. Fakültənin dekanı onun yarandığı vaxtdan bu günə qədər Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, İslam Konfransı Təşkilatı Fıqh Akademiyasının həqiqi üzvü, İraq Elmlər Akademiyasının müxbir üzvü, Misir Ərəb Dili Akademiyasının müxbir üzvü, Azərbaycan və Dağıstan Respublikasının əməkdar elm xadimi, filologiya elmləri doktoru, professor V.M.Məmmədəliyevdir.

***Professor-müəllim hey'əti.*** Fakültəmizdə 6 elmlər doktoru, professor, 4 elmlər namizədi, 3 dosent, 4 baş müəllim, 10 müəllim, 3 laborant və 1 katibə fəaliyyət göstərir.

Fakültənin tədris planı yerli xüsusiyyətlər, spesifik cəhətlər nəzərə alınmaqla İstambuldakı Mərmərə Universitetinin İlahiyyat fakültəsinin tədris planı əsasında tərtib edilmişdir.

***Fakültənin kafedraları.*** Fakültədə 2 kafedra – islam elmləri kafedrası /müdiri – prof. Xeyri Ertən / və dillər kafedrası / müdiri – dos.M.Qarayev / fəaliyyət göstərir.

İslam elmləri kafedrasında 6 doktor – professor çalışır. Onların hamısı müqaviləyə əsasən Türkiyə Respublikasının müxtəlif ali məktəb-

lərindən də'vət olunmuş mütəxəssislərdir. Bunlar dekan yardımçısı prof. Fəthi Əhməd Polad, İslam elmləri kafedrasının müdiri prof.Xeyri Ertən, prof. Rəhmi Yaran, prof. Kamil Günəş, prof. Həsən Cirit və prof. Mustafa Altundağdır. Bu müəllimlərin hər biri öz ixtisası sahəsində islamşünaslıq üzrə tanınmış alimdirlər.

Fakültəmizdə islam elmlərindən ilk dərs deyən müəllimlər prof.Təyyar Altıqulac, prof. Kamal Atik və prof. Cəlal Ərbay olmuşlar. Onlardan sonra burada prof. Habil Nazlıgül, Əli Rəsuloğlu, dos.Əli Ulusoy, prof. Ərdoğan Pazarbaşı, prof.Özgü Aras, prof. Mövlud Fərligül, prof. Həsən Güləc, prof. Xalis Albayraq, prof. Mucdat Ulucam, prof. Zəkəriyyə Gülər, prof. Səffat Köse, prof. Əbdüləziz Xətib, prof. Cem Zorlu, prof. Seyfulla Sevim, dos. Ələddin Dərman, prof. Əhməd Yurtsevən, prof. Süleyman Akkuş dərs demişlər. Onların çoxu burada tədrislə yanaşı müxtəlif islam elmləri ilə bağlı bir çox monoqrafiyalar və məqalələr yazıb çap etdirmişlər.

Dillər kafedrasında 15 müəllim fəaliyyət göstərir. Onlardan üçü dosent, dördü baş müəllim, səkkizi isə müəllimdir.

***Fakültənin tədris və elmi həyatı.*** Fakültədə ərəb dili, Qur'ani-kərim, islam əxlaqı, islam dininin əsasları, islam tarixi, təfsir üsulu, fiqh üsulu, hədis üsulu, təfsir, fiqh, hədis, Qur'anın qıraət növləri, din fəlsəfəsi, kəlam /nəzəri ilahiyyat/, islam ölkələri coğrafiyası, dinlər tarıxı, din fəlsəfəsi və məntiq, islam fəlsəfəsi, islam məzhəbləri tarixi, təsəvvüf, din psixologiyası, din sosiologiyası, islam fənlərinin tədrisi üsulu, islam mədəniyyəti tarixi, pedaqogika, Azərbaycan tarixi, Azərbaycan dili, ingilis dili, fars dili, ümumi dilçilik və ərəb dilçiliyi, dini nitq mədəniyyəti, dini musiqi, hərbi hazırlıq, bədən tərbiyəsi və bir neçə xüsusi kurs tədris olunur. Göründüyü kimi fakültəmizdə dini elmlərlə yanaşı dünyəvi elmlər də tədris olunur. Bu da tələbələrimizdə hərtərəfli dünyagörüşünün formalaşmasına kömək edir. Belə müasir dünyagörüşə malik və dünyada baş verən proseslərdən xəbərdar olan yüksək ixtisaslı dinşünas kadrlara hazırda respublikamızın böyük ehtiyacı vardır.

Hazırda fakültəmizin 30-dan artıq mə'zunu magistratura və doktorantura xətti üzrə təhsilini Türkiyə Respublikasında davam etdirir. Onlar təhsillərini başa vurduqdan sonra vətənə qayıdıb fakültəmizdə öz

müəllimləri ilə çiyin-çiyinə çalışacaq və gənc dinşünas kadrların hazırlanmasında yaxından iştirak edəcəklər.

İlahiyyat fakültəsi gənc olmasına baxmayaraq orada bir sıra elmi-metodik işlər görülmüş və görülməkdədir. Fakültə müəllimləri istər respublika, istərsə də Universitet miqyasında keçirilən elmi konfrans və simpoziumlarda fəal iştirak edir, maraqlı mə'ruzələrlə çıxış edirlər. Dillər kafedrasının müəllimləri ötən müddət ərzində üç kitab, iki tədris proqramı, bir dərs vəsaiti və otuzdan artıq elmi məqalə çap etdirmişlər. Onlar ərəb, fars, türk və ingilis dillərinin aktual məsələləri ilə bağlı araşdırmalarını indi də davam etdirirlər.

İlahiyyat fakültəsinin zəngin kitabxanası vardır. Türkiyə Diyanət Vəqfi müntəzəm surətdə kitabxanamıza müxtəlif dillərdə nəşr edilmiş elmi kitablar, dərslik, dərs vəsaitləri və lazımi dini ədəbiyyat göndərir.

Fakültəmizdə milli və dini bayramlar müntəzəm olaraq qeyd edilir. Hər il Məhəmməd əleyhissəlamın mövludu münasibətilə fakültədə elmi konfrans keçirilir. Bununla yanaşı fakültəmizdə digər dini və milli bayramlar eləcə də xalqımızın və respublikamızın həyatı ilə bağlı olan başqa hadisələrlə əlaqədar olaraq geniş tədbirlər həyata keçirilir.

Fakültədə tələbələrimizin həm dərslərlə lazımınca məşğul ola bilmələri üçün, həm də rahatlıqları üçün hər bir şərait yaradılmışdır. Burada bütün lazımi avadanlıqlarla təmin olunmuş sinif otaqları, kitabxana, oxu zalı ilə yanaşı bufet, yeməkxana və namaz otaqları da onların ixtiyarına verilmişdir. Həm də fakültənin yeməkxanasında işçilərə pulsuz yemək verilir. Xüsusilə qeyd etmək lazımdır ki, hər il Ramazan ayında oruc tutan şəxslər üçün hər axşam pulsuz olaraq iftar süfrəsi açılır. Fitrə bayramı münasibəti ilə hər il təşkil olunan bayram süfrəsində isə müntəzəm olaraq BDU-nun rektorluğu, müxtəlif fakültə dekanları və kafedra müdirləri iştirak edir.

***Fakültənin ictimai həyatı.*** Fakültənin müəllim və tələbə hey'əti Universitetin ictimai həyatında fəal iştirak edir. Fakültə tələbə elmi cəmiyyəti tələbələrimizin elmi tədqiqat işlərinə cəlb olunması və onlarda islam elmlərinə rəğbət hissinin aşılanması sahəsində faydalı işlər görür.

Fakültədə 5 ildən artıqdır ki, «Şən və hazırcavablar klubu» fəaliyyət göstərir. İlahiyyat fakültəsinin tələbələri Universitet və ali məktəblərarası idman yarışlarında müntəzəm olaraq iştirak edirlər. Fakültənin futbol komandası 2000-ci ildə BDU-nun çempionu olmuşdur.

11 yaşı yenicə tamam olmuş İlahiyyat fakültəsi hələ çox gənc olmasına baxmayaraq universitetimizin digər fakültələri arasında artıq öz layiqli yerini tutmuş və bu yolda yeni-yeni müvəffəqiyyətlər qazanmaq uğrunda əzmlə addımlamaqdadır.

Sonda qeyd etmək istərdik ki, fakültəmiz yarandığı gündən indiyədək Azərbaycan Respublikası Təhsil naziri prof.M.Mərdanov, BDU-nun rektoru AMEA-nın müxbir üzvü prof.A.Məhərrəmov və Türkiyə Diyanət Vəqfinin, xüsusən onun nümayəndəsi Türkiyə Böyük Millət Məclisinin üzvü prof.T.Altıqulacın böyük qayğısını hiss etmiş və etməkdədir. Fakültə kollektivi onlara öz dərin təşəkkürünü və minnətdarlığını bildirir.